**TÜRKPA İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ**
**V İCLASI**
**TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ İQTİSADİYYATIN**
**ŞAXƏLƏNDİRİLMƏSİNƏ DAİR**
**HESABAT**

## I. GİRİŞ

1. Güclü, inkişaf edən və şaxələnən iqtisadiyyat hər bir xalqın qarşısında duran əsas məqsədlərdən biridir. Şaxələndirilmiş iqtisadiyyat sərvət və iş yerlərinin yaradılması, yeni informasiya və texnologiyaların inkişafının təşviqi və sabit siyasi mühitin təmin edilməsinə yardım etməklə bir millətin yaşayış standartını artırmış olur. Bu kontekstdə TürkPA üzv ölkələri məsələ ilə bağlı öz fikir və strategiyalarını işləyib hazırlamışdır.

2. Resurs sektorundan iqtisadiyyata keçid ondan olduqca asılı olan bir ölkə üçün böyük bir problemdir. İxrac və iqtisadi şaxələndirmə sürətləndirilmiş uzunmüddətli artım baxımından görünən faydalar gətirə biləcəyinə görə resurs asılılığında olan ölkələr hasilat sektorundan asılılığını azaltmaq üçün müxtəlif siyasət həyata keçirir.

3. Uğurlu diversifikasiya planı möhkəm siyasi öhdəlik, ardıcıl ictimai siyasət və əhəmiyyətli maliyyə resursları tələb edir. Və indiki zamanda belə bir planın yaradılması üzv ölkələr arasında qurulmuş institutlaşdırılmış əməkdaşlıq, yeni texnologiyalar, informasiya və ən yaxşı təcrübələrin paylaşılması ilə daha asan ola bilər.

4. İnkişaf üçün zəngin təbii ehtiyatların geniş imkanlar açdığı zamanda ixracat mənfəəti və maliyyə gəlirləri üçün təbii resurslardan asılı olan ölkələr özünəməxsus problemlərlə üzləşir. Əmtəə ixracatı zəngin resurslara malik xalqlara və yanacaq iqtisadiyyatına böyük maliyyə gəlirləri gətirərkən, əmtəə gəlirlərində daxilə geniş xarici mübadilə axını və dəyişkənliyi makroiqtisadi idarəetməni çətinləşdirir və ölkələrdə ani qiymət dəyişmələrinə həssaslığı artırır.

5. İqtisadiyyatın şaxələndirilməsi ölkələrin xarici təsirlərə qarşı həssaslığını azalda və zəngin resursların istifadə edilməsi üçün əliverişli şərait yarada bilər.

6. Hesabat Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin milli nümayəndə heyətlərinin tövhələri, eləcə də iqtisadi məsələlərlə məşğul olan təşkilatların məlumat bazalarına əsaslanır.

## II. ÜZV ÖLKƏLƏRDƏ İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ

7. Hesabat üzv ölkələrdə əsas iqtisadi göstəricilər və iqtisadi şaxələndirmə siyasəti haqqında məlumat verir. Şaxələndirmə siyasətinin nəticələri ilkin şəraitdə mövcud olan fərqləri əks etdirmək, siyasətin quruluşu və həyata keçirilməsi ilə fərqlənir.

8. Bütün TürkPA üzv ölkələrində hökümətlər düşünülmüş şəkildə makroiqtisadi mühiti saxlayır və iqtisadi şaxələndirmə strategiyasının qurulması və həyata keçirilməsində əsas rol oynayır. Hökumət rəsmiləri resurs əsaslı inkişaf strategiyasına xas olan riskləri anlayır. Bundan əlavə hökumət iqtisadi və ixracat şaxələndirilməsini asanlaşdırmaq üçün xüsusi stimul yaratmışdır.

9. TürkPA üzv ölkələrində iqtisadiyyatın şaxələndirilməsində son tendensiyalar göstəriri ki, hər bir ölkə öz milli siyasətində sosial-iqtisadi əsas və bazar potensialından asılı olan şəxsi prioritetlərə malikdir. Eyni zamanda, hər bir üzv ölkə dayanıqlı investisiya mühitinin yaxşılaşdırılmasının təmin edilməsi üçün liberallaşdırma siyasətini elan etməklə xarici investisiyalara önəm verir. Müəyyən ölkələr xarici investorlar üçün “açıq qapı” siyasətini həyata keçirir.

## Azərbaycan

### 2015-ci ildə Azərbaycanın əsas makroiqtisadi göstəriciləri

(ötən ilin müvafiq dövrünə uyğun faiz nisbətlərinə görə)

| | *Yanvar-Mart* | *Yanvar-İyun* | *Yanvar-Sentyabr* | *Yanvar-Dekabr* |
|---|---|---|---|---|
| **Ümumi Daxili Məhsul** | 105,3 | 105,7 | 103,7 | 101,1 |
| **Sənaye İstesalı** | 103,9 | 103,8 | 102,1 | 102,4 |
| **Kənd Təsərrüfatı İstehsalı** | 103,4 | 107,3 | 106,7 | 106,6 |
| **Kapital Qoyuluşu** | 103,0 | 103,7 | 100,5 | 88,9 |
| **Yüklərin Daşınması** | ~~102,7~~ **102,6** | ~~101,6~~ **101,5** | ~~101,1~~ **100,6** | ~~100,6~~ **100,2** |
| **Pərakəndə Ticarət Dövriyyəsi** | 109,6 | 113,4 | 111,4 | 110,9 |

*Mənbə: MDB-nin Dövlətlərarası Statistika Komitəsi*

10. 10 yanvar 2016-cı ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Nazirlər Kabinetinin 2015-ci ildə sosial-iqtisadi inkişafa həsr edilmiş toplantısı keçirilmişdir və post neft dövrünün problemləri müzakirə edilmişdir. O ölkənin gələcək iqtisadi inkişafında əsas problemləri qeyd etmişdir.

11. Prezidentin çıxışından aydın olur ki, 2016-cı ildə tədbirlər qeyri-neft sektorunun inkişafına yönələcəkdir. Bu məqsədlə ölkənin neftdən iqtisadi asılılığının azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilmə prosesi surətləndirilmişdir. Eyni zamanda, hökumətə Dövlət Neft Fondunun vəsaitlərini mühafizə etmək (19 yanvar 2015-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti 10 246 611.9 min manat gəlir və 11 813 909.2 min manat xərclər daxil olmaqla Dövlət neft Fondunun 2015-ci ilə olan büdcəsinin təsdiq edilməsi haqqında əmr imzalamışdır), fonddan dövlət büdcəsinə köçürmələrin azaldılması həvalə edilmişdir. Vergi bazasının genişləndirilməsi, gömrük rəsmiləşdirilməsində şəffaflığın təmin edilməsi və idxal-ixrac əməliyyatları, eləcə də maliyyə nəzarətinin gücləndirilməsi yolu ilə büdcənin formalaşdırılması planlaşdırılır.

12. Qabaqlayıcı tədbir olaraq Azərbaycan hökumətinə kənd təsərrüfatı sahəsində islahatları genişləndirmək, informasiya və kommunikasiya texnologiyalarını inkişaf etdirmək, cəlbedici və rəqabətli turizm sektorunun yaradılması kimi göstərişlər

verilmişdir. Bununla yanaşı, Azərbaycan nəqliyyat dəhlizlərinin uğurlu fəaliyyətinə ümid edir. ~~Tezliklə Mərkəzi Avropadan Çinə, daha sonra Yaponiyaya daşınmanı həyata keçirəcək Şərq-Qərb nəqliyyat dəhlizi layihəsinin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmiryolunun fəaliyyətə başlayacağı gözlənilir. Eyni zamanda, Şərq-Qərb dəhlizi bu gün xeyli dividend verir. Hal-hazırda Azərbaycan, Gürcüstan və Türkiyə bu dəhlizdə ümumi tarifi paylaşır.~~ **Bakı-Tbilisi-Qars dəmir yolu 30 oktyabr, 2017-ci ildə, Şərq-Qərb Nəqliyyat Dəhlizi layihəsi kontekstində hökumət tərəfindən istismara verilmişdir. Bu Bakı-Tbilisi-Qars tarixi İpək Yolunun bir hissəsinin bərpasıdır və bundan Çin, Orta Asiya ölkələri, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa ölkələri istifadə edəcəklər. Layihənin məqsədi sərnişin və yük daşınmalarının həyata keçirilməsidir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Recep Tayyip Erdoğan Gürcüstan, Qazaxıstan və Özbəkistanın baş nazirləri, habelə Türkmənistanın və Tacikistanın nazirləri, digər ölkələrin nümayəndələri açılış mərasimində iştirak etmişdir. Uzunluğu 850 kilometr olan dəmir yolunun 504 kilometrlik hissəsi Azərbaycan Respublikası ərazisindədir. Avropa və Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu ən qısa və ən münasib marşrutdur. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bu yolun istifadəsi zamanı turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti region ölkələrinin geosiyasi əhəmiyyətini artıracaq və onlar üçün əlavə imkanlar yaradacaq. İlkin mərhələdə 5 milyon ton yük daşınmış, gələcəkdə bu rəqəmin 17 milyon ton olacağı gözlənilir.** *(Azərbaycan tərəfindən dəyişdirilmişdir)*

13. ~~2015-ci ilin yanvar – sentyabr ayları ərzində istehsal edilmiş məhsulların və sənaye sahəsində göstərilən xidmətlərin həcmi 19 715,5 mln.~~ **2015-ci il ərzində sənaye sahəsində istehsal edilmiş məhsulların və göstərilən xidmətlərin həcmi 26156.9 mln.** AZN təşkil etmişdir. Bu rəqəm keçən ilin eyni dövründəki göstəricini ~~2.1~~ **2.4**% -ə qədər üstələyir. *(Azərbaycan tərəfindən dəyişdirilmişdir)*

14. Neft sənayesi keçən ilin eyni dövrü ilə müqayisədə 0.7% aşağı düşməklə 14 081,7 mln. AZN təşkil edir.

15. Qeyri-neft sənayesi ~~5 633,8~~ **7060.3** mln AZN təşkil edir və keçən illə müqayisədə ~~10.2~~ **8.4**% artmışdır. Bu artım ümumilikdə **maşın və avadanlıqların quraşdırılması** ~~avtomobil və qurğuların yığılması~~ və təmiri (~~2,1~~ **2,7** dəfə~~yə qədər~~), kimya sənayesi (~~97.2~~ **43.2**%~~-ə qədər~~), **komputer, elektron və optik məhsulların** ~~elektrik təchizatı sahəsində~~ istehsalı (~~20.8%~~ **2.1 dəfə**), tikinti materiallarının istehsalı (~~12,2~~ **6.3**%), ~~metallurgiya sənayesi (5.1%-ə qədər)~~ və qida məhsullarının istehsalı (~~3.6~~ **2.9**%~~-ə qədər~~) və s. sahələ~~rin~~də müşahidə edilir. *(Azərbaycan tərəfindən dəyişdirilmişdir)*

16. Sənaye məhsulları ~~dağ-mədən~~ **mədənçıxarma** (~~62.6~~ **61.8**%~~-ə qədər~~), emal (~~29,4~~ **29,9**%~~-ə qədər~~), ~~emal istehsal,~~ elektrik enerjisi, qaz və buxar ~~təchizatı və bölgüsü~~ **istehsalı, bölüşdürülməsi və təchizatı** (~~7,1~~ **7.3**%~~-ə qədər~~), su təchizatı, tullantıların ~~idarə edilməsi və~~ təmizlənməsi **və emalı** (~~0,9~~ **1.0**%~~-ə qədər~~) sahələrində istehsal edilmişdir. *(Azərbaycan tərəfindən dəyişdirilmişdir)*

## QAZAXISTAN

**Qazaxıstan Respublikasının 2015-ci il üçün əsas makroiqtisadi göstəriciləri**
**(ötən ilin faiz nisbətlərinə görə)**

| | *yanvar-mart* | *yanvar-iyun* | *yanvar-sentyabr* | *yanvar-dekabr* |
|---|---|---|---|---|
| **Ümümi daxili məhsul** | 102,3 | 101,7 | 101,2 | 101.2 |
| **Sənaye istehsalı** | 100,6 | 100,6 | 99,0 | 98,4 |
| **Kənd təsərrüfatı istehsalı** | 103,0 | 103,0 | 103,1 | 104,4 |
| **Əsaslı vəsait** | 102,9 | 104,4 | 103,5 | 103,7 |
| **Yüklərin daşınması** | 102,3 | 102,4 | 101,1 | 99,7 |

| | | | | |
|---|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | 103,6 | 102,9 | 102,4 | 99,6 |

*Mənbə: MDB-nin Dövlətlərarası Statistika Komitəsi*

17. Qazaxıstan Respublikasının 2010-2014-cü illər üçün sənaye-innovasiya inkişafının sürətləndirilməsi üzrə Dövlət Proqramı istehsalat sənayesinin inkişafının sürətləndirilməsi ilə iqtisadiyyatın şaxələndirilməsi prosesinin başlanğıcına öz töhfəsini vermişdir.

18. 2010-2014- cü illər üçün sənaye-innovasiya inkişafının sürətləndirilməsi üzrə Dövlət Proqramı iqtisadiyyatın şaxələndirilməsi prosesinin başlanğıcı ilə qeyri- neft ixracını artırmış və qeyri-neft sektoruna birbaşa xarici investisiyaları cəlb etmişdir.

19. Bu proqram vasitəsilə istehsal sənayesində məşğulluğun təmin edilməsi mümkundur. İlk beşillik plana əsasən dövlət və yeni siyasətin müxtəlif alətləri sınaqdan keçirilmiş, hökumət qeyri- hasilat sənayesinin inkişafı üçün əhəmiyyətli olan böyük layihərin dəstəyi ilə sənayenin inkişaf institutlarının səmərəli sistemini yaradılmışdır.

20. Ümumiyyətlə, sənayeləşmə dövrünün ilk beş ili ərzində Qazaxıstan özəl investisiyalar hesabına 3 trilyon tenge dəyərində nəzərdə tutulmuş 1042 layihələrdən 770-ni icra etmişdir. Yeni layihələr çərçivəsində 75 min daimi iş yeri açılmışdır. SİİSDP -1 dövründə ölkənin sənaye sektorunda əmək məhsuldarlığının sürətli artımı müşahidə olunmuşdur.

21. Proqnozlara əsasən, 2020-ci ilədək nəzərdə tutulmuş layihələrdən əldə olunacaq gəlirlər 1.2-1.8% artmaqla ÜDM-nin 5-6.4% təşkil edəcəkdir.

22. 2015-ci ildən sənayenin yeni imkanlarının sürətli inkişafına yönəlmiş ikinci beşillik plan dövrü başlamışdır. Belə ki, ikinci beşillik plan istehsal sənayesinin şaxələndirilməsi və rəqabətin artmasına təsir göstərəcəkdir.

22. Bu məqsədə nail olmaq üçün, aşağıdakı istiqamətlər üzrə işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur: istehsalat sənayesinin qabaqcıl inkişafı; səmərəliliyin və prioritet sektorlarda əlavə dəyərin artırılması; qeyri-neft ixracının artırılması; istehsalat sənayesinin qabaqcıl sektorlarında adaptasiyanın yeni mərhələsinə keçid və sektorların gələcək inkişafında innovasiya qruplarının formalaşdırılması,istehsalat sənayesində sahibkarlığın, həmçinin orta və kicik biznesin inkişafı.

23. Qazaxıstanın beşillik sənaye siyasətinin ikinci hissəsinin proqramı qrup yanaşması və sənayə səmərəliliyinin tənzimlənməsinə əsaslanaraq məhdud sektorlar və regional ixtisaslaşma üzrə resursların və seylərin birləşməsi ilə istehsalat sənayesinin inkişafı.

24. Orta səviyyəli işçi güvvəsinin təkmilləşdirilməsi məqsədi ilə qarşıda duran vacib məsələləri həll etmək. Belə ki, 2030-cu ilədək orta səviyyəli işçi sayının artırılması və aşağı ixtisaslı işçi sayının ölkənin ümumi məşğulluq səviyyəsinə nisbətdə azaldılması nəzərdə tutulmuşdur.

25. Ekspertlər 2030-cu ilədək iqtisadiyyatda çalışan işçi güvvəsinin 11 % artmaqla 9,4 milyona çatacağını pronozlaşdırmışdır. 2030-ci ildə Qazaxıstan iqtisadiyyatında orta səviyyəli mütəxəssislərin sayı 680 minə çatacaqdır.

## QIRĞIZISTAN

**Qırğızıstan Respublikasının 2015-ci il üçün əsas makroiqtisadi göstəriciləri**

**(ötən ilin faiz nisbətlərinə görə)**

| | ***yanvar-mart*** | ***yanvar-iyun*** | ***yanvar-sentyabr*** | ***yanvar-dekabr*** |
|---|---|---|---|---|
| **Ümümi daxili məhsul** | 107,0 | 107,3 | 106,3 | 103,5 |
| **Sənaye istehsalı** | 120,9 | 123,6 | 117,4 | 95,6 |
| **Kənd təsərrüfatı istehsalı** | 101,6 | 102,4 | 106,1 | 106,2 |
| **Əsaslı vəsait** | 105,9 | 106,8 | 104,5 | 108,0 |
| **Yüklərin daşınması** | 101,8 | 102,4 | 101,9 | 102,7 |
| **Pərakəndə ticarət dövriyyəsi** | 104,8 | 105,0 | 105,6 | 106,0 |

*Mənbə: MDB-nin Dövlətlərarası Statistika Komitəsi*

26. Qırğızıstan Republikasının 2013-2017-ci illər üçün nəzərdə tutlmuş Milli Davamlı İnkişaf Strategiyası höküməti strateji istiqamətlər və əsas islahatların həyata keçirilməsinə çağırır. Bu strategiya uzunmüddətli dinamik inkişafın əsasını təşkil edəcəkdir.

27. Beş illik strategiya çərçivəsində milli enerji sektorunun çıxış imkanlarının artırılmasına yönəlmiş boyük investisiya layihələrin və əsas struktur dəyişiklərin həyata keçirilməsi üçün imkanlar yaradılacaqdır; 2017-ci ilədək ölkənin enerji təhlükəsizliyi təmin ediləcək.

28. Daxili istehlak ehtiyacları qarşılanacaq və Qırğızıstan üçün regionda enerji ekspertlərinin idarə edilməsi məqsədilə əlverişli şərait yaradılacaqdır. Eyni zamanda, təbii resurslar ekoloji cəhətdən zərəsiz şəkildə istifadə olunacaqdır.

29. Bu 5 il ərzində 350 min əlavə iş yerinin yaradılması planlaşdırılır - bu da o deməkdir ki, hər bir ailənin ən azı bir üzvü işlə təmin olunmalıdır. Orta əmək haqqı 2017-ci ilə qədər 11.5 mindən artaraq 26 min Qırğızıstan Somu təşkil edəcək. Yoxsulluq həddi 2017- ci ilə qədər 37 %-dən 25 %-ə düşərək, 12 % real azalma baş

verəcək. Yoxsulluğun azalması,ölkə əhalisinin 60%-nin yaşadığı kənd yerlərində həyat keyfiyyətin yaxşılaşması mənasına gəlir. Kənd təsərrüfatı kənd əhalisinin gəlir və dolanışıq qaynağı,və zəmanət mənbəyi olacaq və həmçinin, ölkənin ərzaq təhlükəsizliyini də təmin edəcək

29. Qırğızıstan Respublikasının Milli Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə iqtisadi artım 103.5 % təşkil edib.
30. 2015-ci ildə iqtisadi artım iqtisadiyyatın demək olar ki, bütün sahələrində praktiki olaraq təmin edilir, kənd təsərrüfatı sahəsində 0,9% , tikinti sahəsində - 1,1%, xidmət sahəsində - 1,7% müsbət töhfə kimi qiymətləndirilir. İstehsal sektorunda 0.7 % azalma müşahidə olunub.

**Türkiyə**

31.~~Türkiyənin Ümumi Daxili Məhsul 2015-ci ilin sentyabrına qədər üç ay ərzində illik hesablamada 1.3 il faiz yüksəlib, əvvəlki rübdə isə 1.4 faiz artım olmuşdur.~~ **Türkiyənin ÜDM-i ötən illə müqayisədə 2016-cı ildə 2.9% artmışdır. 2017-ci ilin ikinci rübündə ötən ilin ikinci rübü ilə müqayisədə 5.1% artım müşahidə edilmişdir. Kənd təsərrüfatı sektorunda 4.7%, sənayedə 6.3%, tikintidə isə 6.8% artım baş vermişdir. Ticarət, daşınma, məskunlaşma və ərzaq daxil olmaqla, xidmət sektorunda 5.7% artım müşahidə edilmişdir.** *(Türkiyə tərəfindən dəyişdirilmişdir)*

32. İxracat əvvəlki rübdəki 1.5 faizlik düşüşdən sora 1.7 faiz genişlənmişdir,buna baxmayaraq idxalat düşməyə davam edirdi (2-ci rübdə -0,6 faizdən -5.1 faizə). 2014-cü ilin birinci rübündən etibarən iqtisadiyyat sürətli templə 4 faiz genişlənmişdir.
33. Maliyyə intizamı və büdcə-vergi siyasəti Türkiyənin iqtisadi proqramının əsas sütunları olmağa davam edir və hər 2 arqument deflyasiyaya və həmçinin güclü artım göstəricilərinə əhəmiyyətli dərəcədə töhfə vermişdir. Düşünülmüş makroiqtisadi siyasətə əlavə olaraq, Türkiyə hərtərəfli və geniş tətbiq edilən struktur islahatlar proqramı həyata keçirmişdir.

34. Digər ölkələrin təcrübəsi ilə müqayisədə, Türkiyənin struktur və qurulmuş dəyişikliklərin keçirilməsi sahəsində əlamətdar uğuru olmuşdur. Həqiqətəndə, Türkiyə öz maliyyə sektorunun yenidən strukturlaşdırmasında, həmçinin dövlət sektorunun və biznes-mühitin idarə edilməsinin təkmilləşdirilməsində əhəmiyyətli irəliləməyə nail olmuşdur.

Həyata keçirilən struktur islahatlarının yönəldiyi istiqamətlər:
- Özəl sektorun Türkiyə İqtisadiyyatında rolunun artması
- Maliyyə sektorunun səmərəliliyinin və möhkəmliyinin artması(genişlənməsi)
- Sosial təminat sisteminin daha sağlam zəmində yerləşdirilməsi.

35. Türkiyə ~~iqtisadiyyatı böyüdükcə,həyat səviyyəsi də əhəmiyyətli dərəcədə artmışdır. Adambaşına düşən ümumi daxili məhsulun həcmi 2003- cü ildə 4,565~~

~~ABŞ Dolları təşkil etdiyi halda , 2014-cü ildə bu dəyər 10,505 ABŞ Dolları həcmində artmışdır.~~ Türkiyə iqtisadiyyatı davamlı inkişaf etdikcə yaşayış standartı əhəmiyyətli dərəcədə yüksəlmişdir. 2013-cü ilin adambaşına düşən ÜDM-i 4,565$ (USD) səviyyəsindən 2016-cı ildə 10,807$ (USD) səviyyəsinə qalxmışdır. 2018-ci ildə, adambaşına düşən ÜDM-in 11,000$-ı (USD) keçəcəyi gözlənilir. *(Türkiyə tərəfindən dəyişdirilmişdir)*

36. Türkiyə qabağcıl texnologiya və dünya bazarı ilə sıx bağlı olan sənaye sektoru ilə yanaşı,turizm və kənd təsəsrrüfatının rəqabət qabiliyyətini də inkişaf etdirmişdir.

37. İnsan kapitalına investisiya qoyuluşu ixracyönümlü sənaye sahələrində ümidverici amildir. Savadlı,ixtisaslı ucuz işçi qüvvəsinin movcudluğu Türkiyənin yüksək texnologiya sənayesinin inkişafında tənqidə məruz qalıb. Ümumiyyətlə, insan kapitalının inkişafı məhsuldarlığı artırmış və rəqabət qabiliyyətini yüksəltmişdir.

38. Türkiyə hökuməti kiçik və orta sahibkarlığı dəstəkləmək və xarici bazarlara çıxış imkanlarının asanlaşdırmaq yanaşmasını qəbul etmişdir. Bu siyasi təşəbbüs rəqabətə davamlı sənaye inkişafının möhkəmləndirilməsində səmərəli olmuşdur.

## III.YEKUN

39**.** TÜRKPA üzv ölkələrinin təcrübələri vurğulanır. At the beginning of their journey toward more diversified economies in terms of output and exports.

40. TÜRKPA hesab edir ki , öz fəaliyyətində prioritet vəzifələrdən biri üzvlər arasında iqtisadi əməkdaşlığın inkişafıdır. Bu çərçivədə üzv ölkələrin ticarət və investisiya siyasəti üçün əlverişli şəraitin yaradılmasına xüsusi önəm verilir.

41. Bişkekdə keçirilən 3-cü Plenar Sessiya zamanı,TÜRKPA tərəfi etiraf edir ki,iqtisadi əməkdaşlıq türkdilli dövlətlərin regional inteqrasiyasının əsas hərəkətverici qüvvəsidir və bununla bağlı hökumətləri üzv ölkələrin arasında qarşılıqlı ticarəti və iqtisadi əməkdaşlığı aktivləşdirməyə çağırır.

42. Yuxarıda qeyd edilənlər nəzərə alınaraq, iqtisadi sahədə institusional əməkdaşlığın inkişafı, üzv ölkələrin iqtisadiyyatının şaxələndirilməsində əsas mexanizm ola bilərdi.

43. Bu hesabatın əsas ideyası ondan ibarətdir ki,dəstəkləyici siyasət mühit üzv ölkələrə öz iqtisadiyyatlarını şaxələndirməyə imkan yarada bilər.

44. Sənədin icmalı (The overview paper) şaxələndirmənin uğuru üçün konkret amilləri aydın şəkildə müəyyən edir . Bütovlükdə, həmin amillər :

a) müsbət və əlverişli makroiqtisadi mühitin qorunması;

b) yerli şərait və coğrafi amillər nəzərə alınaraq həqiqi şaxələndirmə strategiyasının hazırlanması;.
c) şaxələndirmə prosesinə yardım üçün fəaliyyət göstərən dövlət qurumları yaradılması;
d) maliyyə resurslarının səfərbərliyə alınması və geniş ictimaiyyətin dəstəklənməsi məqsədilə siyasət ölçülərinin qəbulu;
e) şaxələndirmə səylərini dəstəkləmək üçün adekvat infrastruktur qurulması.